**AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ**

**POLİS AKADEMİYASI**

**“DİO - da XÜSUSİ TEXNİKA”**
**KAFEDRASI**

**Nüsxə №**

**“DAXİLİ İŞLƏR ORQANLARINDA XÜSUSİ TEXNİKA”**
**fənni üzrə**

# M Ü H A Z İ R Ə

## MÖVZU № 15 «DİO-da istifadə olunan gizli foto şəkilçəkmə, səs və videoyazı vasitələri»

**Vaxt - 6 saat**
**Müh. - 2 saat**
**Sem. - 2 saat**
**Təc. - 2 saat**

**Tərtib etdi:** Kafedranın rəisi,
polis polkovnik-leytenantı **Əjdər Quliyev**

Mühazirənin mətni kafedra iclasında müzakirə olunmuş və təsdiq edilmişdir.

Protokol № « » 2012-ci il

**B A K I - 2 0 1 2**

# P L A N:

**GİRİŞ:**

1. Gizli foto şəkilçəkmə, səs və videoyazma haqqında anlayış, onun məqsədi və tətbiqinin hüquqi əsasları.
2. Gizli foto şəkilçəkmə, səs və videoyazma tədbirlərinə hazırlıq, onun aparılması və nəticəsinin sənədləşdirilməsi qaydaları.
3. Gizli foto şəkilçəkmə, səs və videoyazma vasitələrinin təsnifatı, onların quruluşu, taktiki-texniki xarakteristikaları və istifadə qaydaları.

**NƏTİCƏ:**

# Ə D Ə B İ Y Y A T:


1. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublika-sının Qanunu. Maddələr: 10 - I bənd (8,9,10 hissələr), 8, 9, 10 bəndlər; 14 – 4 bənd; 16 – 3 bənd
2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi.
3. Maddələr: 51, 177, 214, 227-252, 260-263, 445.
4. M.X.Cəfərov «DİO-da xüsusi texnika». Dərslik. Bakı-2004 səh. 136-153.
5. M.X.Cəfərov, Ə.İ.Quliyev «Əməliyyat texnikasının tətbiqi zamanı tərtib olunan sənədlərin nümunələri». Metodik göstəriş. Bakı-1998.
6. Ə.Quliyev «DİO-da xüsusi texnika». «Albom-sxem». Bakı-2008.
7. «Speüialğnaə texnika i informaüionnaə bezopasnostğ». Uçebnik, pod redaküiey. V.İ.Kirina, Akademiə Upravleniə MVD Rossii. Moskva, 2000. Tom I, str. 78-83

# Giriş

Müstəqil Azərbaycan Respublikası demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu özünün inkişaf yolu seçərək, sivilizasiyalı cəmiyyətə doğru inkişaf etməkdədir. Bu inkişafın da əsası həm ölkə daxilində, həm də ölkə xaricində məqsədyönlü, düşünlmüş və müdrik idarəçiliyin təşkil edilməsindən asılıdır.

Bu baxımdan Azərbaycan Respublikası Prezidenti möhtərəm İlham Əliyev cənablarının yeritdiyi düşünülmüş və inamla həyata keçirdiyi məqsədyönlü dövlət siyasəti sahəsində qanunların aliliyi, hər bir hüquqazidd əmələ görə cəzanın labüdlüyü və humanistlik prinsiplərinin vəhdəti əsasında daxili sabitliyin dönməzliyi təmin olunmuş, demokratiya üçün zəruri olan şərait yaradılmış, geniş hüquqi islahatlar aparılmış, ölkəmiz beynəlxalq iqtisadi proseslərə inteqrasiya olunmuşdur.

Bu prosesdə Respublikanın daxili işlər və hüquq-mühafizə orqanları da öz səlahiyyətləri çərçivəsində yaxından iştirak edərək ölkədə qanunçuluğun, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunması, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi və cinayətkarlığa qarşı mübarizədə qarşılarına qoyulmuş vəzifələrin yerinə yetirilməsində öz qüvvələrini əsirgəmirlər.

Cəmiyyətimizin müasir inkişafı dövründə, sosial, iqtisadi məsələlərin həllində xalq təsərrüfatının bütün sahələrində elm və texnikanın rolu gündən-günə artır. Hazırda texnikaya insan fəaliyyətinin bütün sahələrində rast gəlinir.

Qeyd etmək lazımdır ki, elmi-texniki yüksəlişin nailiyyətlərindən istifadə olunması respublikamızda cinayətkarlığın kökünün kəsilməsi və onu doğuran səbəblərin aradan qaldırılması sahəsində ən vacib və həlledici amillərdən biridir.

Daxili işlər orqanlarının qabaqcıl təcrübəsi göstərir ki, elm və texnikanın nailiyyətlərindən istifadə etməklə, cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin mühafizəsi üzrə qanunda və qanun əsasında hazırlanmış normativ sənədlərdə göstərilən tədbirləri, operativ və yüksək səviyyədə həyata keçirmək olar.

Daxili işlər orqanlarının əməliyyat-xidməti fəaliyyətinin mürəkkəb və çoxplanlı olması, ən müxtəlif texniki vasitələrin tətbiq olunmasını tələb edir.

Bu baxımdan, əməliyyat-axtarış tədbirlərini həyata keçirən zaman əməliyyat texniki vasitələrin kompleksindən geniş və düzgün istifadə olunmalıdır. Bu texniki vasitələrdən biri də gizli foto şəkilçəkmə, səs və videoyazı vasitələridir.

## SUAL I. Gizli foto şəkilçəkmə, səs və videoyazma haqqında anlayış, onun məqsədi və tətbiqinin hüquqi əsasları.

Daxili işlər orqanlarının əməliyyat xidməti fəaliyyətinin mürəkkəb və çoxplanlı olması, ən müxtəlif texniki vasitələrin tətbiq olunmasını tələb edir.

Qeyd etmək lazımdır ki, elmi-texniki yüksəlişin nailiyyətlərindən istifadə olunması respublikamızda cinayətkarlığın kökünün kəsilməsi və onu doğuran səbəblərin aradan qaldırılması sahəsində ən vacib və həlledici amillərdən biridir.

Daxili işlər orqanlarının bu istiqamətdə texniki vasitələrlə təchiz olunması, onların marağını daha dolğun əks etdirir.

Son zamanlar daxili işlər orqanlarının xüsusi hazırlanmış texniki vasitələrlə təchiz olunması işləri xeyli genişlənmişdir. Bunlara ilk növbədə operativ rabitə vasitələri, mühafizə siqnalizasiyası cihazları, axtarış texnikası, operativ foto şəkilçəkmə, səs və videoyazı vasitələri və s. daxildir.

Daxili işlər orqanlarının apardıqları əməliyyat-axtarış və profilaktiki tədbirlərin keçirilməsində, cinayətkarların axtarışı, qeydiyyatı, hadisə yerinə baxış və sübutayetirmə vasitələri kimi fotoşəkilçəkmə və videoyazı cihazlarından geniş istifadə olunur. Bu vasitələr barədə məlumatlarımızı bir qədər genişləndirək.

Foto şəkilçəkmənin vəzifəsi, çəkilmiş əşya və hadisələr haqqında dəqiq və əyani məlumatları əks etdirməkdən ibarətdir. Foto şəkilçəkmənin bu xüsusiyyəti hələ XIX əsrdə kriminalistlər tərəfindən yüksək qiymətləndirilmişdir.

Foto şəkilçəkmə demək olar ki, hələ 1841-ci ildən cinayətkarların qeydiyyatı və axtarışı, sonralar isə hadisə yerinin müayinəsi və sübutayetirmə vasitələrinin tədqiqatı üçün istifadə olunmağa başlanmışdır.

Hazırda foto şəkilçəkmə, səs və videoyazı vasitələri və üsulları yalnız cinayətin təhqiqatı və məhkəmə araşdırması zamanı deyil, həm də daxili

işlər orqanlarının həyata keçirdiyi əməliyyat-axtarışı və profilaktik tədbirlər zamanı meydana çıxan faktları qeyd etmək üçün geniş istifdaə olunur.

Hətta bu Fotoqrafiya təsvirləri praktiki olaraq dəyişməz və dayanıqlıdır. Həm yaxın və həm də uzaq məsafələrdən müxtəlif obyektlərin şəklini ağ-qara, yaxud da əlvan plyonka üzərinə çəkmək olar. Şəkilçəkmə iki hissəyə bölünür: statiki və dinamiki.

***Statiki şəkilçəkmə*** zamanı, çəktilən obyektin ayrı-ayrı təsvirlərindən istifadə olunur.

***Dinamiki şəkilçəkmə*** prosesində eyni obyekt, qısa fasilələrlə çoxlu sayda çəkilir. Bu zaman istənilən sayda, lazımi ölçüdə və tez fotoqrafik təsvir almaq olar.

Səs və video yazı cihazları quruluşuna və istifadə olunmasına görə sadə olduğu üçün nitqin və təsvirin müxtəlif şəraitlərdə yazılmasına və onun keyfiyyətinin yerindəcə yoxlanmasına imkan verir.

Səs yazı üsulu cinayətkarlığa qarşı mübarizə aparan, ictimai qaydaların təhlükəsizliyi üzrə tədbirləri həyata keçirən mühafizə dəstələrinin işinə operativ rəhbərliyi həyata keçirən növbətçi hissəsinin fəaliyyətində daha geniş tətbiq olunur.

Son zamanlar cinayətlərin “texnikalaşdırılması” ənənəsi nəzərə çarpır, yəni cinayətkarlar kəşfiyyat, tələbetmə və şantac məqsədilə müasir səs yazı və ntiqin sintezi vasitələrindən istifadə edirlər. Buna görə də əməliyyat-axtarış marağı və kriminalistika xidmətləri üçün qəbul olunmuş ilkin informasiyanın audio yazılarının analizinin və sintezinin aparılmasına imkan verən yeni metod və sistemlərdən istifadə olunması vacibdir.

Məlumdur ki, kompüterin və rəqəmli texnologiyanın yaranması, informasiyanın yığılması və onun emalı sistemini yeni səviyyəyə qaldırdı. Bu qarşıya qoyulan məsələnin həllini kəskin surətdə dəyişdirir.

Növbətçi hissələrində telefon zənglərinin qeydə alınması, telefon danışıqlarının arxivləşdirilməsi üzrə bütün əməliyyatlar səsyazma cihazları vasitəsilə yerinə yetirilir.

Belə texnika, hüquq-mühafizə orqanlarının fəaliyyətində aşağıdakı bəzi xüsusi tələblərə cavab verməlidir:

– gün ərzində növbəni fasiləsiz təmin etməlidir;

– verilən və qeyd olunan informasiyanın sənədləşdirilməsini təmin etməlidir;

– məlumatların axtarışı, ötürülməsi və qeydiyyatı zamanı yüksək operativliyə malik olmalıdır;

– növbətçi hissəsində quraşdırımış əməliyyat rabitə pultu.

İdarə avtomat telefon stansiyası və eləcə də istifadə olunan mobil və stasionar radiostansiyalar ilə tam uyğun olmalıdır.

Bu gün demək olar ki, kompüter sistemi ilə qeydiyyat yarandıqdan sonra, bu sahə daha geniş inkişaf etməyə başlamışdır.

Daxili işlər orqanlarının fəaliyyətində istifadə olunan səs yazı cihazları vasitəsilə aşağıdakıları qeyd etmək olar:

– «102» xüsusi telefon xətti və yaxud mobil radio kanallarından daxil olan məlumatları;

– vəzifəli şəxslərdən, idarələrdən, müəssisələrdən, təşkilatlardan və eləcə də ayrı-ayrı vətəndaşlardan hazırlanmış və yaxud da baş vermiş cinayət haqqında məlumatları;

– ictimai qaydaların pozulması haqqında, təbii fəlakət, fövqəladə halların yaranması haqqında məlumatları;

– növbətçinin sərəncamında olan xidmət sahələrinə verilən sərəncam və göstərişləri;

– radio kanalı vasitəsilə daxil olan məlumatları;

– hadisə yerində şahidlərin verdikləri ifadələri;

– zərərçəkmiş, ağır bədən xəsarəti almış və sonradan yaşaması şübhəli olan şəxslərin dindirilməsində və s.

Foto şəkilçəkmə və səsyazma qeyd olunan müsbət cəhətlərinə görə, daxili işlər orqanlarının çoxplanlı və müxtəlif fəaliyyətində hazırlanmış

xüsusi vasitələr və fəndlər əsasında geniş tətbiq olunur. Daxili işlər orqanlarında foto şəkilçəkmə iki formada:

- cinayətin təhqiqatı zamanı və inzibati fəaliyyətdə açıq;
- əməliyyat-axtarış fəaliyyətində isə gizli həyata keçirilir.

Gizli foto şəkilçəkmə və videoyazı, əməliyyat-axtarış tədbirlərinin keçirilməsi zamanı faktiki məlumatların gizli fotoqrafiya qeydiyyatı üçün istifadə olunan xüsusi növlü vasitələrin və üsulların sistemidir.

Gizli foto şəkilçəkmə, səs və videoyazı daxili işlrə orqanlarının fəaliyyətində cinayətin açılmasında, cinayətkarın və oğurlanmış əşyaların axtarılmasında mühüm əhəmiyyət kəsb edir.

Ancaq təcrübə göstərir ki, cinayətkarlıqla mübarizədə bu səmərəli vasitələr, əməliyyat işçiləri tərəfindən tam istifadə olunmur.

Lakin gizli şəkilçəkmə, səs və videyazı vasitələrinin və üsullarının bacarıqla tətbiq olunması, DİO üçün əməliyyat marağı doğuran hadisələrin dəqiqliklə və tez qeydd olunmasına ən yaxşı imkan verir.

Gizli foto şəkilçəkmənin məqsədi, qanun normalarına ciddi əməl etməklə cinayətkarların axtarışı, cinayətin açılması, qarşısının alınması üçün təhqiqatda olan və yaxud yoxlanılan şəxslərin, eləcə də daxili işlər orqanları üçün əməliyyat marağı doğuran sənədlərin xarici əlamətlərinin qeyd olunmasından ibarətdir.

Gizli foto şəkilçəkmə, səs və videoyazı-əməliyyat-axtarış tədbiridir belə ki, cinayət-axtarış idarəsinin əməkdaşları bu tədbirin keçirilməsi zamanı bir sıra təşkilati, əməliyyat-taktiki, texniki və digər operativ məsələlərin həllinə xüsusi fikir verməlidirlər. Bu zaman əməliyyat şəraiti analiz olunmalı, foto şəkilçəkmənin obyekti və yeri öyrənilməsi, çəkiliş aparmaq üçün tam plan tərtib olunmalı, lazım gələrsə, “əfsanə” belə hazırlanmalı və gizli şəkilçəkmə və videoyazmanın tətbiq olunmasının məxfiçiliyini təmin edə biləcək tədbirlər görülməlidir. Belə foto şəkilçəkmə yalnız təhqiqatda olan və ya oxlanılan şəxslərdən deyil, həm də tərafdakı şəxslərdən belə gizlin həyata keçirilir. Əgər gizli şəkilçəkmə, səs və videoyazıya tərif versək, deyə

bilərik ki, gizli foto şəkiçəkmə və videoyazı, adi və ya xüsusi çəkilmiş aparatlarının köməyi ilə daxili işlər orqanları tərəfindən  təhqiqatda olan, yaxud da yoxlanılan şəxslərin xarici əlamətlərinin, hərəkətlərinin, eləcə də gizlənmiş cinayətkarların axtarışı, cinayətin açılması və qarşısının alınması üçün əməliyyat marağı doğuran sənədlərin qanunçuluğa ciddi əməl etməklə şəkillərinin çəkilməsinə yönəlmiş əməliyyat-axatırş tədbiridir.

Gizli foto şəkilçəkmə və səsyazma həm sərbəst tədbir kimi, həm də digər əməliyyat axtarış tədbirlərinin kompleksi kimi, aşağıdakı hallarda aparıla bilər:

- təhqiqatda olan şəxslərin cinayətkar fəaliyyətini əks etdirən sənədlərin məhv edilməsi və ya dəyişdirilməsi haqqında məlumat olarsa;
- baş vermiş və ya  hazırlanmış cinayət faktlarının ayrı-ayrı elementlərini qeyd etmək lazım gələrsə;
- daxili işlər orqanları üçün əməliyyat marağı doğuran şəxslərin hər hansı bir obyektə gedişini, yaxud görüş yerlərini qeyd etmək zərurəti yaranarsa;
- gizli və ya üstü örtülü keçirilmiş əməliyyat baxışının nəticəsinin sənədləşdirilməsi lazım olarsa;
- əməliyyat marağı doğuran şəxslərin fotoşəkillərinin alınması lazım gələrsə;
- kriminalistika tədqiqatları üçün lazım olan yazı xəttinin və yaxud digər materialların nümunəsini almaq lazım gələrsə və s.

Cinayətkarlıqla mübarizənin təhlili göstərir ki, məlumatın qeydə alınması vasitələri yalnız istintaq işində deyil, hətta cinayətin hazırlanması və törədilməsi təsdiq edən hərəkətlərin sənədləşdirilməsi, sənədlərin və şəxslərin görüşmə faktlarının qeydə alınması, hadisə yerlərinin baxışı, izlərin zahiri görkəminin yoxlanması və nəticələrinin qeydə alınması ilə əlaqədar olan əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı, məlumatın əldə edilməsi üçün də səmərəli istifadə oluna bilər.

Təcrübə göstərir ki, məlumatın qeydə alınmasının texniki vasitələri geniş istifadə olunmadan qanuna zidd olan hərəkətləri sənədləşdirmək çox vaxt qeyri-mümkün və ya çox çətin olur. Bu isə cinayətkar qurumların peşəkar əks-təsiri və törədilən cinayətlərin yüksək gizlilik səviyyəsi ilə əlaqədardır. Eyni zamanda onların vaxtında və düzgün istifadəsi ən mürəkkəb və dolaşıq cinayətləri ifşa etmək və üstünü açmaq imkanını verir.

Ən yeni texnologiyalar əsasında hüquq-mühafizə orqanları üçün işlənib hazırlanmış məlumatın qeydə alınması texnikası, hazırda yüksək etibarlılıq, xidmətdə sadəlik, kiçik ölçülər, istismarın genişləndirilmiş hərəkət diapazonu və bu kimi taktiki texniki imkanlara malikdir.

Məlumatın qeydə alınmasının texniki vasitələrinə foto, video və audio yazı vasitələri aiddir. Bu vasitələr, hüquq-mühafizə orqanları üçün maraqlı olan şəxs və obyektlərin dalınca vizual müşahidələr və audioyazıların nəticələrini qanun çərçivəsində qeydə almaq, uzun müddət saxlamaq və gələcək əməliyyat-axtarış fəaliyyəti prosesində, ibtidai və məhkəmə istintaqında istifadə etmək imkanını verir.

Gizli foto şəkilçəkmə, səs və videoyazının tətbiqinin hüquqi əsasına gəldikdə, demək olar ki, bu cihazların köməyi ilə keçirilən tədbirlərə əməliyyat-axtarış tədbirlərinin bir növü kimi baxılır və hüquqi əsasını Azərbaycan Respublikasının “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunun 10, 14 və 16 maddələri təşkil edir. Belə ki, əməliyyat işçilərinə əməliyyat-axtarış tədbirlərin həyata keçirilməsi zamanı informasiya sistemlərindən, video və səs yazmadan, kino və foto şəkillərdən, həmçinin vətəndaşların həyatvə və sağlamlığına, ətraf mühitə zərər vurmayan digər texniki və başqa vasitələrdən istifadə etmək hüququ verilir.

Cinayətin təhqiqatı zamanı inzibati fəaliyyətdə açıq formada foto şəkilçəkmə, səs və videoyazı vasitələrinin tətbiqinin hüquqi əsasını isə, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 214.6-cı və 445-ci maddələri təşkil edir. Bu maddələrə əsasən cinayət işləri üzrə təhqiqat keçirildikdə müstəntiqlərə bir çox prosessual hərəkətlərin

aparılması zamanı audio, videoyazı, foto, kino çəkilişdən və digər yazan texniki vasitələrdən istifadə etmək hüququ verilir. Belə ki, prosessual hərəkəti aparın şəxs hərəkətə başlamazdan əvvəl bütün iştirakçıları bu barədə xəbərdar etməlidir.

Daxili İşlər orqanlarının istintaq fəaliyyətində isə səsyazma vasitələrinin tətbiq olunmasının hüquqi əsasını Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 51 və 226-235-ci maddələri təşkil edir.

Səsyazma vasitələri, dindirilən şəxsin verdiyi ifadələri bütün əlamətləri ilə olduğu kimi qeyd edir və bu ifadələrin lazım gələrsə surətini çıxarmağa imkan verir.

Cinayətin təqibi zamanı səsyazma cihazlarının tətbiq olunması aşağıdakı hallarda məqsədə daha yuğundur:

– azyaşlıların dindirilməsi zamanı (CPM maddə 228);

– lal, kar, kor və ya digər ağır xəstəlikdən əzab çəkən şahidin dindirilməsi zamanı (CPM, m.229);

– şahidin dindirilməsi zamanı (CPM, m.227);

– zərərçəkmiş şəxsin dindirilməsi zamanı (CPM, maddə 231);

– şübhəli şəxsin dindirilməsi zamanı (CPM, maddə 232);

– təqsirləndirilən şəxsin dindirilməsi zamanı (CPM, maddə 233);

– tərcüməçinin iştirakı ilə verilən ifadələrin qeydiyyatı zamanı (sonradan, verilmiş ifadəni yoxlamaq məqsədilə).

Qeyd etmək lazımdır ki, təcrübədə səsyazma vasitələrini taktiki fənd kimi də istifadə etmək olar. Bu zaman səs yazı vasitələri açıq tətbiq olunmalıdır, yəni dindirilən şəxsə, verdiyi ifadənin maqnit lentinə yazılacağı bildirilir və eləcə də dindirmə protokolunda səs və video yazı vasitəsindən istifadə olunması öz əksini tapır. Buda ki, dindirilən şəxsə öz təsirini göstərməyə bilməz, çünki onlar artıq hiss edirlər ki, sonradan öz ifadələrini dəyişə bilməyəcəklər və ona görə də düzgün informasiya vermək məcburiyyətində qalırlar.

Səsyazmanın üzləşdirmə prosesində tətbiq olunması daha qiymətlidir. Çünki, şəxsi üzləşdirmə zamanı, biri digərinə psixoloci təsir göstərir (xüsusilə dindirilən şəxslər arasında qohumluq əlaqəsi olduqda). Odur ki, dindirmə zamanı həmin şəxsləri bir-birinə qarşı qoymaqdansa, onları ayrılıqda dindirmək və onların verdikləri ifadələri maqnit lentinə köçürmək, sonradan isə birinin ifadəsini o birinə səsləndirmək daha yaxşı səmərə verər.

Bu texniki vasitələrdən istifadə olunması prosessual hərəkətin aparılması haqqında protokolda qeyd olunmalı, yazı və ya çəkilişlər möhürlənməli və müvafiq protokolun əlavəsi kimi cinayət təqibi üzrə icraatın materialları ilə birlikdə saxlanmalıdır. Prosessual hərəkətin gedişinə dair audio yazılar, foto, video, kino və ya digər çəkilişlər başqa prosessual hərəkətin aparılması zamanı dinlənildikdə və yaxud baxıldıqda bu barədə qeyd axırıncı prosessual hərəkətin aparılması haqqında protokol göstərilməlidir.

Bu texniki vasitələrin istifadə olunması isə Daxili işlər nazirliyinin hazırladığı müvafiq əmrlərdən irəli gələn normativ sənədlərdə öz əksini tapmışdır. Bütün bu proseslərdə əsas prinsip qanunçuluğa ciddi əməl olunması, insan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsidir.

Gizli foto şəkilçəkmə, səs və videoyazı ilə bağlı tədbirlərin keçirilməsində ictimaiyyətin nümayəndələrindən, bəzi istisna hallarda isə agentin (keçirilən tədbirin mahiyyətini açıqlamamaq şərti ilə) köməyindən də istifadə olunur.

Bundan əlavə, bu tədbirin keçirilməsi üçün əməliyyat işçiləri xüsusi texnika üzrə mühəndisləri və ekspert kriminalistləri də cəlb edə bilər və etməlidirlər.

Gizli foto şəkilçəkmə və səsyazma ilə bağlı olan tədbirlərdə ictimaiyyətin nümayəndələrinin iştirakı, cinayətin açılmasına lazım olan sənədli informasiyanın, məlumatların alınmasına xidmət edə bilər.

Yadda saxlamaq lazımdır ki, gizli şəkilçəkmə, səs və videoyazı o vaxt tətbiq oluna bilər ki, əməliyyat işçisi  konkret fakt üzrə şübhəli şəxs haqqında yoxlanılmış məlumata malik olsun.

Gizli foto şəkilçəkmə və səsyazma tədbirinin həyata keçirilməsi üçün qanunun tələblərinə müvafiq olaraq Daxili İşlər Nazirliyinin hazırladığı əmr əsasında BCAİ-in, Bakı Şəhər Baş Polis İdarəsinin, Rayon Polis İdarələrinin, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin, rayon polis şöbələrinin (bölmələrinin) rəisləri və əməliyyat işləri üzrə müavinləri, əməliyyat qrupuna rəhbərlik edən əməliyyat işçisinin əsaslandırılmış raportu əsasında icazə verə bilərlər.

**SUAL 2. Gizli foto şəkilçəkmə, səs və videoyazma tədbirinə hazırlıq, onun aparılması və nəticəsinin sənədləşdirilməsi qaydaları.**

Gizli foto şəkilçəkmə və səsyazma onun qarşısında qoyulan vəzifənin həyata keçirilməsi üsulundan asılı olaraq, açıq şəkilçəkmə və səsyazma üsullarından bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Bu təkcə çəkilişin ətrafdakı şəxslərdən gizli aparılması ilə deyil, həm də vaxtın az olması və hər bir hərəkətin təkrar oluna bilməyəcəyi ilə izah olunur.

Buna görə də gizli foto şəkilçəkmə və səsyazma özünün mürəkkəbliyinə uyğun olaraq, hər bir əməliyyat-axtarış tədbiri kimi əvvəlcədən dəqiq planlaşdırılmalıdır. Bu tədbirə hazırlaşan zaman hər bir hadisəni, hərəkəti, seçilmiş aparaturanın müxtəlif variantlarını və çəkiliş nöqtələrini elə seçmək lazımdır ki, məxfiçiliyə riayət etməklə şəxslərin hərəkətini tam sənədləşdirmək mümkün olsun. Bu tədbirin keçirilməsində cavabdeh olan əməliyyat işçisinin, gizli şəkilçəkmənin həyata keçiriləcəyi yeri və vaxtı haqqında, çəkiləcək hadisələr və epizodlar haqqında, əməliyyat qrupunun iştirakçıları və onların hər birinin vəzifə bölgüsü haqqında tam təsəvürü olmalıdır. Bu zaman gizli şəkilçəkmənin nə cür həyata keçiriləcəyi və çəkiliş nəticəsində alınmış materialın necə istifadə olunacağını nəzərə almaq lazımdır. Yəni bu, tam əməliyyat məqsədi üçün və yaxud da təhqiqat məqsədi ilə istifadə oluna bilər. Buna uyğun olaraq, gizli şəkilçəkmədə iştirak edəcək ictimaiyyətin nümayəndələri müəyyənləşdirilməlidir.

Gizli foto şəkilçəkmə və videoyazıya ilkin hazırlıq aşağıdakı kimi olmalıdır:

- şəkilçəkmə və videoyazı vasitələrinin tətbiq olunması ilə bağlı, əməliyyat-axtarış planının tərtib olunması;
- çəkiliş üçün nəzərdə tutulmuş yerə getmək və şəraiti müəyyənləşdirmək;
- günün vaxtından asılı olaraq, işıqlanmanı dəqiqləşdirmək;

- çəkiliş nöqtələrini müəyyənləşdirmək və oradan sınaq çəkilişi (imkan daxilində) aparmaq.

Əməliyyat planı, tədbirin keçirilməsinə cavabdeh olan əməliyyat işçisi tərəfindən hazırlanır və onun birbaşa rəisi tərəfindən təsdiq olunur.

Planda aşağıdakıları göstərmək lazımdır:

- şəkilçəkmə və videoyazının məqsədi;
- çəkilişi həyata keçirəcək konkret şəxslər;
- şəkilçəkmə və videoyazı cihazlarının növləri və fotolentlərin tipləri;
- tədbirdə iştiark edən şəxslərin qarşılıqlı əlaqə qaydaları.

Çəkiliş obyektinin yerindən, vaxtından asılı olaraq, uyğun cihazlar, taktiki (fəndlər) və üsullar müəyyənləşdirilir.

Gizli foto şəkilçəkmə və videoyazının aşağıdakı üsulları mövcuddur:

- maskalanmış apartla çəkiliş;
- örtülü yerdən gizli şəkilçəkmə;
- ayrı-ayrı əşyaların və sənədlərin üstü örtülü və ya gizli şəklinin çəkilməsi.

Bu üsulların hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Odur ki, gizli foto şəkilçəkmənin müvəffəqiyyəti, bu tədbirin keçirilməsi üçün aparılan ilkin hazırdıqdan və seçilmiş taktiki fənddən çox asılıdır. Otaq şəraitində şəkil çəkilməsinə hazırlaşarkən əməliyyat işçisi, onun yaxın məsafədən və nisbətən zəif işıqda aparılacağını nəzərə alaraq, geniş bucaqlı obyektivin və yüksək hissiyyatlı fotoplyonkanın lazım olduğunu bilməlidir. Başqa şəraitlərdə çəkiliş uzun fokuslu fotoobyektivlər və nisbətən zəif hissiyyatlı fotoplyonka vasitəsilə aparıla bilər. Maskalanmış fotoaparat vasitəsilə şəkilçəkm, adətən açıq yerdə və yaxul da ictimai yerlərdə (vağzalda, restoranda, parkda, bazarda, çimərlikdə və i.a.)

yaxın məsafədən aparılır. Bu zaman kiçik ölçülü, yaxud da müxtəlif örtük vasitələrində (qadın və kişi üçün əl çantalarında, qovluqda, idman çantasında, radio qəbuledicinin gövdəsində, gəzdirilən səsyazma cihazlarında və i.a.) quraşdırılmış standart fotoaparatlardan istifadə olunur.

Gizli şəkil çəkmək üçün nəzərdə tutulmuş fotoaparatların maskalanmış lazım olan qurğular, əməliyyat işçilərinin tapşırığı üzrə, Kriminalistik Təhqiqatlar İdarəsinin (şöbəsinin) əməkdaşları tərəfindən xüsusi hazırlanır.

Bu qurğuların hazırlanması məxfi hesab olunur və onlar məxfiçilik reciminə uyğun olaraq, DİN-in və ya BPİ-nin ekspert-kriminalist aparatlarında saxlanılır. Fotoaparatlar və uyğun vasitələr xüsusi metal şkaflarda (seyflərdə) saxlanılır və ancaq daxili işlər orqanlarının uyğun əməliyyat-axtarış aparatlarının rəhbərlərinin yazılı icazəsi ilə verilir. Bu aparatların gizli əməkdaşlara verilməsi qadağan edilir. Eləcə də bu aparatların paltar asılan yerlərə (qarderob), saxlama kameralarına verilməsi, baxımsız qoyulması və yaxud kənar şəxslərə etibar edilməsi qəti qadağan olunur.

Daxili işlər orqanlarının xidməti otaqlarda gizli şəkilçəkmə vasitələrinin maskalanması üçün iki variant mövcuddur.

Birinci variantda, gizli foto şəkilçəkmə və vasitələrinin maskalanması üçün adətən kənar şəxslərdə maraq oyada bilməyəcək radioqəbuledicilərin, telefon aparatlarının, ucadandanışan qurğuların və digər əşyaların gövdəsindən istifadə edilir və belə əşyalar kənar şəxslər səsyazma üçün heç bir şübhə yaratmır. Xidmət otağının xüsusiyyətlərini nəzərə alaraq (işın mənbələrinin, qapıların, pəncərələrin və s. yerləşməsini) şəkili çəktləcək obyektin yerləşməsi müəyyənləşdirilir. Bu vasitələr stolun üzərində, yaxud da divardan elə asılmalıdır ki, şəkil çəkiləcək obyet obyektivin görünmə bucağı altında yerləşsin. Şəkil çəkmək üçün idarə pultu əməliyyat işçisinə münasib vəziyyətdə quraşdırılır.

Xidməti kabinetlərdə gizli şəkilçəkmənin ikinci variantı yarımşəffaf güzgülərin işıqlı bir istiqamətdə buraxmasına əsaslanır. Bu cür güzgü tibbi aptek çantası kimi, divardan asılmış kitab rəfində, yaxud da şkafda yerləşdirilə bilər. Üzərində isə "Papiros çəkməyin", "Zibilləməyin", "Bizdə papiros çəkilmir" və s. kimi ifadələrin müxtəlif variantlarını yazmaq olar.

Bunların ən başlıcası, həmin əşyaların ətrafdakılar üçün təbii olması və heç bir şəbhə oyatmamasıdır.

Küçədə yaxın məsafədən şəkil çəkən zaman, çəkiliş nöqtəsini seçərkən, çəkiliş obyektin yerləşməsinə, onun hərəkətinə, işıq mənbəyinin vəziyyətinə və s. diqqət vermək lazımdır.

Küçədə şəkil çəkən zaman çalışmaq lazımdır ki, çəkilən obyektlə birlikdə müəyyən oriyentirlər qeyd olunsun. Məsələn, küçənin adını bildirən lövhə, evin nömrəsi, mağazanın adı və ya nömrəsi, müəssisə və ya idarənin adı, tramvay və avtobus dayanacaqları, telefon köşkləri və s.

Nəzərə almaq lazımdır ki, küçədə çəkiliş zamanı əməliyyat işçisinin çəkilən obyektə yaxınlaşmaq imkan olmur. Belə hallarda münasib örtülü yer axtarılır (otaq, örtülü maşın və s.) və belə yerlərdən, çəkilən obyektdən müəyyən qədər aralı məsafədən gizli şəkil çəkmək və videoyazı aparmaq olar.

Lazım olan otaq şəraitini müəyyənləşdirdikdən sonra, həmin otağın sahibi ilə və ya vəzifəli şəxslə (dövlət obyekti olarsa) müəyyən bəhanə ilə şəkilçəkmənin iştirakçılarının oraya buraxılması haqqında razılıq alınması barədə danışıq aparılmalıdıp. Aparılan tədbiri məxfi saxlamaq üçün “əfsanə” hazırlanmalıdır. Həmin otaqda ancaq çəkiliş iştirakçıları olmalıdırlar.

Mənzildən çəkiliş aparan zaman, pəncərəni və ya nəfəsliyi açıq qoymaq, şəkilçəkmə vasitələrini isə elə yerləşdirmək lazımdır ki, çöldən içəri görünməsin.

Gizli foto şəkilçəkmə, səs və videoyazı aparmaq üçün örtülü nəqliyyat vasitələrindən də istifadə etmək olar. Bu zaman əməliyyat işçiləri onları maraqlandıran şəxsin hərəkətlərini maşının pəncərəsindən, qapıdan, yaxud da xüsusi açılmış deşikdən müşahidə etməklə, şəkilçəkməni (videoyazını) həyata keçirə bilərlər. Maşın çəkiliş yerində elə dayandırılmalıdır ki, obyekt aydın görünsün və kənar şəxslərin diqqətini cəlb etməsin. Pəncərədən şəkil çəkən zaman, onun şüşəsi hər iki tərəfdən təmiz silinməlidir. Şəkil çəkmək

üçün isə “FS-12” tipli fotosnayperdən istifadə olunması məsləhət görülür. Çünki, onun obyektivindəki rezin cünlük (blenda) birbaşa şüşəyə yapışdırılır ki, bu da çəkiliş zamanı ikinci dayaq rolunu oynayır.

Küçə şəraitində gizli şəkil çəkmək və ya videoyazı aparmaq üçün başqa üsullardan və yaxud örtüklərdən istifadə etməklə də aparmaq olar.

Məsələn, geodeziya işçiləri kimi, teodelitlə yanaşı uzaq məsafədən şəkilçəkmə vasitələrindən istifadə etməklə tədbiri həyata keçirmək və ya rabitə xətlərinin təmir işçiləri kimi telefon quyularında təmir işləri aparan şəxs kimi. Bu zaman quyunu çadırla (palatka) örrtürlər, onun girişinə yaxın yerdə təsir işlərinin aparıldığını bildirən yol nişanı qoyurlar və lazım olan vaxt gəldikdə gizli şəkil və videoyazı həyata keçirirlər.

Üstüörtülü foto şəkilçəkmə, maskalanmış aparatlarla olduğu kimi, əsasən yaxın məsaflərdən şəkil çəkmək üçün istifadə olunur. Fərq ancaq ondan ibarətdir ki, buarada standart fotoaparatlardan istifadə olunur və cihazlar maskalanmır. Ətrafdakılar hətta təhqiqatda olan şəxs şəkil çəkildiyini görürlər, ancaq buna o qədər əhəmiyyət vermirlər. Onlara elə gəlir ki, kadra təsadüfən düşürlər.

Üstüörtülü foto şəkilçəkmə bir də onun fərqlənir ki, burada apparat yox, əməliyyat işçiçinin hərəkətləri maskalanır.

Cinayət izinin itirilməsi vasitəsi kimi istifadə edilə biləcək sənədlərin şəklinin gizli çəkilməsi, faktiki verilənlərin qeyd olunması üçün istifadə olunur. Bunun nəticəsində də cinayətin açılması üçün mühüm şərtlər aydınlaşdırılır. Sənədlərin gizli üsulla alınmış foto surəti, müəssisələrin bu və ya digər fəaliyyətini öyrənməyə, oğurluğun üsullarını, oğurlanmış malların satılma kanallarını və s. müəyyənləş-dirməyə imkan verir.

Sənədlərin surətinin çəkilməsi (gizli), şəraiti tam öyrəndikdən sonra planlaşdırılır. Alınmış məlumatlar əsasında, gizli şəkilçəkmə planı tərtib olunur və orada sənədlərin harada, necə, kim tərəfindən və hansı sənədlərin surətinin alınması qeyd olunur.

Sənədlərin surətinin gizli foto çəkilməsi, daxili işlər orqanlarında, onların yerləşdiyi idarə və müəssisələrdə, eləcə də yolda olan zaman həyata keçirilə bilər.

Daxili işlər orqanlarında sənədlərin gizli foto çəkilməsi o vaxt aparıla bilər ki, inanılmış şəxsin və ya ictimaiyyətin nümayəndələrinin həmin sənədləri müvəqqəti götürmək imkanına malik olsun.

Əgər sənədləri müəssisədən kənara çıxarmaq mümkün olmasa, onda onları həmin yerdə çəkirlər. Belə tədbirlər adətən həmin müəssisədə işləyən və həmin sənədlərlə əlaqəsi olan ayrı-ayrı şəxslərin köməyi ilə həyata keçirilir.

Əgər əməliyyat marağı doğuran sənədlərin müəyyən şəxslərin köməyi ilə fotoşəklini çəkmək imkanı olmazsa, onda əməliyyat işçilərinin, sənədlərin saxlandığı xidməti otaqlara gizli yolla daxil olması ilə həyata keçirilir.

Əlbəttə, bu cür cavabdehli əməliyyat tədbiri dəqiqliklə işlənmiş plan əsasında müxtəlif yüklərin aparılmasına və yaxud daşınmasına verilmiş qəbzlərdən və fakturalardan alınır. Bu tədbiri əsasən Baş Dövlət Yol Polisinin əməkdaşları aparır, çünki onların yük aparan maşınları saxlamaq və uyğun sənədləri yoxlamaq səlahiyyətləri vardır. Bu zaman sənədlərin surətinin alınması, xüsusi YPX-nin müvafiq maşınlarında və ya postlarında olan otaqda həyata keçirilir.

Gizli səs yazı prinsipindən istifadə olunmasının əsas məqsədi, gizlənmiş cinayətkarların axtarışı, cinayətin açılması və qarşısının alınması üçün lazım olan informasiyaları toplayıb qeyd etməkdən ibarətdir. Bu məqsəd üçün tətbiq olunan səs yazı cihazları elə texniki xüsusiyyətlərə malik olmalıdır ki, əməliyyat üçün lazım olan informasiyanın itkisi minimum olsu. Onu da nəzərə almaq lazımdır ki, informasiya itkisi yalnız maqnitofonun xüsusiyyətlərindən deyil, həm də yazının aparıldığı şəraitdən də çox asılıdır.

Gizli səs yazmanın əsas prinsipi ondan ibarətdir ki, hər bir halda maqnitafonu gizlətmək lazım gəlir. Bunun üçün təcrübədə müxtəlif üsullardan istifadə olunur.

Şəxsi axtarış zamanı gizli səs yazma vasitələrinin tətbiqində məqsəd, əməliyyat işçiləri üçün maraq doğuran şəxslər, dəlillər, hadisələr və s. haqqında lazım olan məlumatlar toplmaqdan və eləcə də həmin şəxslərin cinayətkarlıq fəaliyyətini sənədləşdirməkdən ibarətdir.

Səsin yazılması ilə bağlı tədbirlərin keçirilməsi zamanı maqnitofonun və mikrofonun seçilməsindən və onların düzgün yerləşdirilməsindən çox şey asılıdır. Belə ki, səsi yazılan şəxslə, mikrofonun eyni səviyyədə yerləşməsi daha yaxşı nəticə verər.

Aydındır ki, gizli səs yazma zamanı yüksək hissiyatlı mikrofonlardan istifadə edilir və bu da təbiidir ki, istənilən titrəyin, silkələnmə və s. yazılışın keyfiyyətinə mənfi təsir göstərəcəkdir. Odur ki, səs yazma aparılan otaqlarda səsboğan materialların (xalça, palaz, yumşaq mebel, pərdə və i.a.) olması vacibdir.

Səsyazma tədbirini həyta keçirən şəxs öz hərəkətlərinə daima nəzarət etməlidir, yəni öz hərəkətləri ilə əlavə səslərin yaranmasına yol verməməlidir.

İstintaq hərəkətinin aparılması zamanı, səs yazmanın tətbiqinin ən xırda əlamətlərini belə nəzərə almaq lazımdır. Yəni otağın yararlığına, maqnitofonun (diktofonun) keyfiyyətinə, dindirmənin aparılma müddətinə və ona uyğun maqnit lentinin hazırlanmasına, mikrofonun yerləşdirilməsinə və eləcə də dindirilən şəxsin oturuş qaydasına fikir verilməlidir.

Səs yazma aparılacaq otaqda maqnitofon əvvəlcədən “yazma” recimində yoxlanılmalı, indikator vasitəsilə yazma səviyyəsi müəyyənləşdirilməlidir. Normal səviyyə əldə olunduqdan sonra, maqnit lenti başlanğıca (əvvəlcə) qaytarılmalı və üzərində olan əvvəlki yazılar pozulmalıdır.

Səs yazma, həm də təqsirləndirilən, şübhələnilən və zərərçəkən şəxslərin xahişi ilə də aparıla bilər.

Şübhəli və ya təqsirləndirilən şəxsin hər bir dindirilməsi haqqında müstəntiq tərəfindən protokol tərtib edilir və həmin protokolda aşağıdakılar qeyd olunur:

– dindirilmənin aparıldığı tarix, vaxt və yer;

– müstəntiqin soyadı, adı, atasının adı və vəzifəsi;

– şübhəli və ya təqsirləndirilən şəxsin soyadı, adı, atasının adı, habelə onun doğulduğu il, ay, gün və yer, onun vətəndaşlığı, təhsili, ailə vəziyyəti, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, faktiki yaşadığı və qeydiyyatda olduğu yer;

– dindirilən şəxsin məhkumluğu, dövlət təltifləri və iş üçün əhəmiyyəti olan digər məlumatlar;

– dindirilən şəxsə onun hüquq və vəzifələrinin izah edilməsi barədə qeyd;

– dindirmə zamanı audio, video yazıdan və digər yazan texniki vasitələrdən istifadə edilməsi barədə qeyd;

– dindirilən şəxsə verilən suallar  və ona cavablar və s.

Dindirmə qurtardıqdan sonra müstəntiq dindirilən şəxsi protokolla tanış edir. Dindirilən şəxs protokolda əlavələrin və düzəlişlərin edilməsini tələb etmək hüququna malikdir. Bu düzəliş və əlavələr isə mütləq protokola daxil edilməlidir.

Protokol dindirilən şəxs və müstəntiq tərəfindən imzalanır. Əgər protokol bir neçə səhifədə tərtib edilərsə, hər bir vərəq dindirilən şəxs tərəfindən ayrıca imzalanır.

Dindirmə zamanı yazan texniki vasitələrlə əldə edilmiş materiallar və yaxud digər məlumat daşıyıcıları protokola əlavə edilir.

İstintaq təqibi qurtardıqdan sonra, yazılmış audio və video yazılar möhürlənir və cinayət işi ilə birlikdə saxlanılır. Cinayətin nəticəsi ilə bağlı son arayışda fonoqram olduğu qeyd olunur. Yazı kasetinin üzərində cinayət işinin nömrəsi və hansı səhifəyə aidiyyəti oduğu qeyd edilir. Belə qeydlər onun məhkəmə prosesində istifadə olunmasını yüngülləşdirir.

Açıq səs yazmadan fərqli olaraq, audio və video yazı vasitələrinin əməliyyat-axtarış fəaliyyətində istifadə olunması Daxili İşlər Nazirinin, Bakı Baş Polis İdarəsinin, Rayon Polis İdarələrinin, Rayon Polis şöbələrinin rəislərinə və eləcə də əməliyyat üzrə onların müavinlərinin icazəsi ilə həyata keçirilir.

Gizli maqnit səs yazmasına icazə alınması üçün əməliyyat subyekti iş üzrə əsaslandırılmış xidməti məktub tərtib edir. Məktubda  əməliyyat tədbirinin keçirilmə vaxtı və yeri göstərilir. Eyni zamanda audio və video yazmaq üçün nəzərdə tutulan maqnit səs yazma texnikasının növləri, onların gizlədilmə üsulları, tədbirin keçirilməsində iştirak edəcək şəxslərin siyahısı, onların edcəkləri hərəkətlərin ardıcıllığı və eləcə də tədbirin həyata keçirilməsi üçün ehtiyat variant göstərilir.

Əməliyyat tədbiri başa çatdıqdan sonra, nəticə olaraq, tədbirin subyekti arayış tərtib edir.

Həmin arayışda əməliyyat işçisi tədbirin nəticəsini göstərməklə, alınmış informasiyanın hansı məqsəd üçün istifadə olunacağını qeyd edir.

Videoyazı prosesinin aparılması, kino çəkilməsi prosesində aparılması qaydalarına əsaslanır. Ancaq, kino çəkilişindən fərqli olaraq, bir sıra üstün cəhətlərə malikdir.

Əməliyyat-axtarış işlərində videoyazıdan istifadə olunması, səslə eyni zamanda əyani olaraq vizual  hadisələrə baxmaq imkanı verir. Məsələn, şəxslərin nitqi, hərəkəti, özünü aparması, hərəkətinin xüsusiyyətləri, obyektlərin ərazi vəziyyəti, yerüstü tikililər, onların xüsusiyyətləri və s. əyani olaraq göstərilir.

Gizli videoyazmaya hazırlaşan zaman aşağıdakıları nəzərə almaq lazımdır:

- videoyazının məqsədi;
- videoyazı hansı şəraitdə həyata keçiriləcəkdir;
- hansı hərəkətlər çəkilməlidir;
- video aparat hansı qida mənbəyindən qidalanmalıdır;
- videoyazının müddəti nə qədər olmalıdır və s.

Gizli videoyazı aparmaq üçün hazırda xaricdə istehsal olunmuş müxtəlif növ videokameralardan istifadə olunur.

Bu növ kameralarda yazma zamanı kadrda avtomatik olaraq, həm çəkilmə, həm vaxt, həm də tarix qeyd olunur ki, bu da yazılan informasiyanın dəqiqliyini və obyektivliyini artırır. Üstün cəhətlərdən biri də çəkilişdən sonra, ən qısa müddət ərzində çəkilmiş kadrlara yerindəcə baxış keçirmək mümkündür.

Qeyd etmək lazımdır ki, hazırda DİO-da əməliyyat keçirmək məqsədilə Kriminalistik Təhqiqatlar bölmələrinə Yaponiyada istehsal olunan daha daha yüksək keyfiyyətli videokameralar daxil olur və təcrübədə müvəffəqiyyətlə istifadə olunur.

Bir şeyi də qeyd etmək lazımdır ki, videokameralar bir qədər yeni növ texnika olduğundan, əməliyyat işçilərinin belə texnika ilə tədbirə çıxması ətrafdakıların diqqətini daha tez cəlb edir. Ona görə də onun əməliyyat işçisi olduğunu maskalamaq məqsədilə onları televiziya əməkdaşı kimi qələmə vermək daha məqsədəuyğundur. Bunun üçün onların nəqliyyat vasitələrinə “televiziya”, “mətbuat” və s. dövhələri vurmaq lazımdır. Belə hallarda həqiqi məqsədi gizlətmək üçün bu vasitələrdə xüsusi qurğular, məsələn, güzgüdən istifadə olunur. Güzgü videokameranın obyektivi qarşısında qoyulur və əməliyyat işçisinə düz dayanaraq, yan tərəfdə nə varsa, çəkməyə imkan verir.

Gizli foto şəkilçəkmə nəticəsində alınmış fotosənədlər, gizlənmiş cinayətkarların axtarışı, gizli əməkdaşlığa namizədlərin cəlb olunması,

cinayətlərin təhqiqatı və s. üçün keçirilən əməliyyat-axtarış tədbirlərində istifadə oluna bilər.

Fotoqrafiya emalından sonra alınmış materiallara əməliyyat aparatının rəhbərliyi tərəfindən baxılır, onun keyfiyyətinə və məzmununa qiymət verilir. Sonradan isə həmin fotosənədlərdən istifadə haqqında qərar qəbul olunur.

Gizli foto şəkilçəkmə üzrə tədbirlər başa çatdıqdan sonra, əməliyyat qrupunun başçısı öz rəisinin adına arayış tərtib edir və orada əsasən aşağıdakı adları qeyd edir:

- çəkilmiş obyektin yerini və vaxtını;
- çəkiliş kim və hansı şəraitdə aparılmışdır;
- istifadə olunan fotoaparatın tipi;
- fotoplyonkanın və obyektivin tipi;
- fotoşəkillərdə qeyd olunan faktların və hadisələrin qısa xarakteristikası və i.a.

Gizli foto şəkilçəkmə zamanı alınmış bütün fotomateriallar, neqativ ilə birlikdə arayışa əlavə olunur. Alınmış materiallar məxfi olduğu üçün uyğun işdə saxlanılır.

Xüsusi curnalda aparatın tətbiqi barədə aşağıdakılar qeyd olunur:

- aparatın tətbiq olunduğu cinayət işinin nömrəsi;
- aparatı tətbiq edən əməkdaşın adı, soyadı, atasının adı, vəzifəsi;
- istifadə olunan aparatın adı (modeli, tipi, növü);
- sərf olunan fotomaterialın miqdarı (fotokağız, fotoplyonka, lent və s.);
- hazır materialı qəbul edən şəxsin soyadı, adı, atasının adı, vəzifəsi;
- materialın əlavə olunduğu yer.

Bəzi hallarda gizli şəkilçəkmə materialları cinayətin tədqiqatı zamanı istifadə oluna bilər. Ancaq nəzərə alınmalıdır ki, bu sənədlər yoxlanılmadan və prosessual qaydada təsdiq olunmadan sübuta yetirmə vasitəsi kimi istifadə oluna bilməz.

Gizli foto şəkilçəkmə və videoyazının tətbiqinin nəticəsi hər rüb cəmləşdirilir və analiz edilir. DİO-nun cinayət-axtarış idarəsinin rəisləri hər ilin yekununda gizli foto şəkilçəkmə və videoyazı nəticələrini və tədbirlər planını özlərindən yuxarı instansiyalara göndərirlər.

**SUAL 3. Gizli foto şəkilçəkmə, səs və videoyazma vasitələrinin təsnifatı, onların quruluşu, taktiki-texniki xarakteristikaları və istifadə qaydaları.**

Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyətində gizli foto şəkilçəkmə, səs və videoyazı adətən, küçələrdə vətəndaşların sərbəst gediş-gəliş yerlərində (vağzallarda, restoranlarda, parklarda və s.) və eləcə də məxfiçilik recimi üzrə məhdudiyyəti olmayan yerlərdə həyata keçirilir. Bu zaman şəkilçəkmə vasitələri müxtəlif növ maskalayıcı qurğularda və ya onlarsız tətbiq olunur. Bir qayda olaraq, maskalayıcı vasitələr, cinayət-axtarış idarəsinin əməkdaşlarının tapşırığına uyğun olaraq Kriminalistik-Təhqiqatlar İdarəsinin əməkdaşları, yaxud da xüsusi texnika üzrə mühəndislər tərəfindən hazırlanır.

Gizli foto şəkilçəkmənin nəticəsi, əməliyyat işçisinin seçdiyi aparatlardan, qurğulardan, maskalayıcı vasitələrdən və eləcə də müxtəlif şəraitlərdə bu vasitələrlə işləmək bacarığından çox asılıdır. Bu ona görə vacibdir ki, gizli foto şəkilçəkmə bəzən dumanlı və ya yağışlı havada, gündüz, qaranlıq və ya gecə vaxtı, zəif işıqlandırılmış otaq şəraitində, nisbətən uzaq məsafədə yerləşən obyektlərin şəklinin çəkilişi zamanı özünü daha çox biruzə verir. Ona görə də əməliyyat işçisi gizli şəkilçəkmə vasitələrindən istifadə etdiyi zaman, onların texniki imkanları haqqında dəqiq təsəvvürə malik olmalıdır.

Hazırda daxili işlər orqanlarında müxtəlif otaq və çöl şəraitində gizli foto şəkilçəkmə zamanı istifadə etmək üçün kifayət qədər müxtəlif növ şəkilçəkmə aparatlarına malikdir. Gizli foto şəkilçəkmə üç növə bölünür:

- yaxın məsafədən foto şəkilçəkmə və videoyazı;
- uzaq məsafədən foto şəkilçəkmə;
- sənədlərin foto çəkilişi.

Ümumiyyətlə, foto şəkilçəkmə vasitələrinə, fotokameralar, dəyişdirilə bilən optik dəstlər, işıq süzgəcləri, günlüklər (blendalar), eksponometrlər

(işıqda qalma müddəti ölçən) və çəkmə prosesini həyata keçirmək üçün zəruri olan cihaz, ləvazimat və qurğular aiddir.

Şəkilçəkməni aparmaq üçün daxili işlər orqanlarının təcrübəsində müxtəlif fotocihaz və fotoaparatlardan istifadə olunur ki, bunları da şərti olaraq 2 əsas qrupa ayırmaq olar: ümumi və xüsusi təyinatlı.

Birinci qrupa peşəkar və həvəskar çəkiliş üçün cihazlar, ikinci qrupa isə xüsusi işlənib hazırlanmış texnika daxildir. Birinci qrup texniki vasitələrdən ən geniş tətbiqə malik olanlar, fotokamera və obyektivlərdir.

Ümumi təyinatlı fotokameraları kadrın formatına, quruluşuna, xüsusiyyətlərinə, çaxmaq mexanizminə, müxtəlif funksiyaların avtomatlaşdırma dərəcəsinə və s. görə təsnif edirlər. Kadrların format ölçülərindən asılı olaraq fotokameralar aşağıdakı 4 qrupa ayrılır:

1. Kadr ölçüləri 10 x 14 mm (və ya 12 x 17 mm, 14 x21 mm) olan kiçik həcmli fotokameralar. Onlarda adətən eyni 16 mm olan plyonkalar istifadə olunur. Bu kameralar kiçik ölçülərə malikdir, istifadəsi asandır və sadə quruluşlu qısafokslu obyektivlərlə təchiz olunurlar.

2. kadr ölçuləri 24 x 36 mm (bəzən 18 x 24 mm və ya 28 x 28 mm) olan kiçik formatlı fotokameralar. Onlarda eni 35 mm olan standart plyonkalardan istifadə olunur. Bu fotokameralar hazırda ən geniş yayılmış növlərdir. Bu modellər bir-birindən çaxmaq mexanizmlərinin quruluşuna, işəsalma mexanizminə, kəskinlik dərəcəsinə və s. taktiki-texniki cəhətlərinə görə fərqlənirlər.

Bir sıra müasir tipli modellərdə yalnız plyonkanın dolanması və çaxmağın qurulması funksiyaları deyil, hətta ekspozisiyanın təyini və müəyyənləşdirilməsi, fonuslamanın müəyyən edilməsi və qurulması funksiyaları da avtomatlaşdırılıb. Fotokameralarda adətən, əvəz edilən obyektivlərin istifadəsi də nəzərdə tutulur.

3. Kadr ölçüləri 60 x 60 mm (və ya 60 x 90 mm, 60x70 mm, 60 x 45 mm) olan orta formatlı fotokameralar. Onlarda eni 61,5 mm olan plyonkalardan istifadə olunur. Kadrın adi ölçüsü ilə müqayisədə

böyüdülmüş kadra malik olan bu fotokaemralar yüksək keyfiyyətli fotomateriallar əldə etməyə imkan verir.

4. Kadr ölçüləri 90 x 120 mm-dən 300 x 400 mm qədər olan iri formatlı fotokameralardan istifadə olunur ki, bunlar da qeydə alınan obyektin ən incə təfsilatlarını çəkmək, professional çəkiliş və ya sənədli səciyyəli çəkiliş üçün nəzərdə tutulmuşdur.

Yuxarıda adları çəkilən fotocihazların modifikasiyaları içərisində geniş sahədə yayılan obyektlərin (əşyaların) çəkiliş nəzərdə tutulmuş mənzərə (panorama) fotokameralarını qeyd etmək lazımdır. Çəkilişin əhatə bucağı $120^0$-yə yaxındır. Onar çoxlu sayda sız (kompakt) bir yerdə yerləşmiş əşyaların yaxın məsafədən çəkiliş üçün nəzərdə tutulmuşdur. (Məsələn, hadisə yerinə baxış).

Fotokameraların daha bir modifikasiyası da, fotomaterialları əlaə olaraq emal etmədən hazır şəkilləri almaq imkanı verir. Bu fotokameralar (“Foton”, “Polaroid” tipli) neqativ və ya pozitiv proseslərini həyata keçirmədən çəkilişdən 1-2 dəqiqə sonra fotoşəkillərin əldə edilməsini təmin edir.

Hadisə yerində (aşkar olunmuş izlər, qan ləkələri, seriya nömrələri, başqa sübut və əşyayi-dəlillər) gerçək miqyasda rəngli şəkillərin ani surətdə əldə edilməsi üçün iri həcmli çəkiliş məqsədilə xüsusi avtomatik güzgülü fotokameralardan istifadə olunur. Gələcək təhrifləri azaltmaq üçün uzun fokuslu obyektivlərdən istifadə olunur. Fotomaterial üzərində çəkilişin tarix və vaxtını qeydə almağa imkan verən qurğu mövcuddur.

Son illər rəqəmli fotokameralardan da istifadə olunur. Əldə olunan təsvir rəqəmli formaya salınır (rəqəmləşdirilir) və ardıcıl port vasitəsilə fərdi kompüterə və ya fotokameranın yaddaş qurğusuna ötürülür. PCMCIA standartlı əlavə yaddaş kartlarının istifadə hesabına şəkillərin sayı məhdudlaşmır. Proqram təchizatının tərkibinə təsvirin surətinin çıxarılması üçün cihaz (qurğu) və “Photoshop” (şəkillərdə istənilən dəyişikliklər aparmaq üçün proqram) daxil olmaqla, “Windows” üçün “WAIN” drayveri

(işə salan proqram) daxildir. Fotokameranın funksional imkanları 16 mln. yaxın rəng çalarlarının həllini təmin edərək hərəkət edən obyektləri çəkməyə imkan yaradır. Adi recimdə fokusun 0,7 m-dən sonsuzluğadək avtomatik tənzimlənməsi və mkrorecimdə (iri əşya recimi) 50 sm məsafədən fotoçəkiliş recimləri vardır.

Uzaq məsafədən şəkilçəkmə zamanı, şəkilçəkmə obyekti dəyişən fokus məsafəsi olan obyektiv transfokator (200 M) vasitəsilə yaxınlaşdırılır. Belə obyektiv təsviri 6,10, 14 və ya 20 dəfə böyütməyə imkan verir ki, bu da lap uzaqda olan obyektlərin keyfiyyətli çəkilməsini təmin edir.

Xırda daxil olma dəliyi olan obyektivləri ayrı qrupa daxil etmək olar. “Pin-hole” (sancaq, iynə dəliyi) növ obyektivlərdə (irəli çıxan daxil olma bəbəyi) var. Belə obyektivlərin diametri 0,8 mm-dən 4 mm-dəkdir. Əsas tətbiq sahəsi məlumatın qeydə alınması üçün gizli quraşdırmadır.

Obektlərin uzaq məsafdən şəklinin gizlin çəkilməsi, teleskopik və ya dəyişən fokuslu obyektivlərin köməyi ilə adi fotoaparatlar vasitəsilə həyata keçirilir. Bu obyektivlərlə işləmək üçün ən münasib kamera “Zenit” tipli fotoaparatdır. Bu aparata demək olar ki, həm daxildə, həm də xaricdə istehsal olunmuş uzunfokuslu teleobyektivlərin çoxusu taktiki cəhətdən uyğun gəlir.

Bu məqsəd üçün təcrübədə Makusto sistemli gizgülü linzalı teleobyektivlərdən istifadə olunur. Bu teleobyektivlərin taktiki-texniki xüsusiyyətləri:

| | MTO-500 | MTO-1000 | MTO-11 MS |
|---|---|---|---|
| Obyektivin fokus məsafəsi | 500 mm | 1000 mm | 1000 m |
| Sahəni görmə bucağı | $5^0$ | $2^0$ $30^1$ | $2^0$ $30^1$ |
| Fokuslama sərhəddi | 3. 4 m | 10 m | 8 m |
| Çəkisi | 1,5 kq | 4 kq | 3 kq |

Hər üç obyektivin həll edicilik qabiliyyəti yüksək olduğundan obyektlərin bütün əlamətlərinini dəqiqliklə qeyd etməyə imkan verir.

Nəzərə almaq lazımdır ki, teleobyektivlərin çəkisi, kameranın çəkisindən bir neçə dəfə çox olduğundan, çəkilişi üç ayaqlı ştativdən istifadə etməklə aparmaq lazımdır. Bu məqsəd üçün obyektivin üzərində standart yivlərlə ştativ yuvası vardır.

"FS-12"-fotosnayperi, "Zenit-E" tipli güzgülü kameradan, "Tair-ZFS" tipli uzun fokslu teleskopik obyektivdən, çaxmaq mexanizmi ilə təchiz olunmuş oturacaqla birlikdə dəstəkdən ibarət olan xüsus qurğudur. "FS-12" ilə adətən uzaq məsafədə yerləşən və hərəkətdə olan obyektlərin şəkilini çəkmək üçün istifadə olunur.

Qurğunun taktiki-texniki xarakteristikaları:

1. obeyektivin fokus məsafəsi - 300 mm
2. diafraqmanın nisbi deşiyi - 1:4, 5
3. okulyarın böyütməsi - 4,5 dəfə
4. sahəni görmə bucağı - $8^0$
5. fokuslama sərhəddi - 3 m
6. diafraqma bölgüsü - 4,5: 22 qədər
7. çəkisi - 2,9 kq

Fotosnayper vasitəsilə maşından, evin pəncərəsindən və digər örtülü yerlərdən şəkil çəkmə olar. "TAİR-ZFS" obyektivi tez fokuslama mexanizmi ilə təmin olunmuşdur ki, bu da bir əl ilə fokuslama mexanizmi ilə təmin olunmuşdur ki, bu da bir əl ilə fokuslama barabanını fırladaraq, obyekti fokusda saxlamağa və digər əl ilə çaxmaq düyməsini işlətməyə imkan verir.

Təhqiqatda və istintaqda olan şəxslərin cinayətkar əlamətlərini sənədləşdirən zaman, müxtəlif əşyaların, sənədlərin və onların üzərində olan yazıların və imzaların şəklinin çəkilməsi ehtimalı yaranır.

Sənəddlərin və əşyaların surəti əməliyyat işçisinin özü, agent, inanılmış şəxs və yaxud da ictimaiyyətin nümayəndələri tərəfindən alına bilər. Bəzi hallarda onların alınması üçün uyğun əməliyyat kombinasiyası işlənir və həyata keçirilir. Şəkil çəkən zaman həmin əşyaların və sənədlərin xarici görünuşünü dəyişmək olmaz.

Sənədlərin şəklini çəkmək üçün uzadıcı üzündən istifadə etməklə adi fotoaparatlardan (kameralardan) və eləcə də kiçik ölçülü xüsusi reproduksiyası almaqdan ibarətdir.

"S-112" qurğunun taktiki-texniki xarakteristikası:

1. lentin eni - 21 mm
2. kadr ölçüsü - 18 x 21 mm
3. reproduksiya sahəsinin ölçüsü - 50 x60 mm
4. lentin uzunluğu - 1,25 mm
5. çəkilən kadrların sayı - 36 ədəd
6. obyektiv - "İndustar" tipli
7. çəkisi (ümumi) - 370 qr
9. reprlduksiya sahəsinin işıqlanması - 4 ədəd lampa
10. qidalanması - 2 ədəd (1,5 V) element

"S-64" tipli reproduksiya qurğusunun vəzifəsi eni 35 mm-lan standart fotoplyonka üzərində sənədlərin fotosurətini tez bir zamanda almaqdan ibarətdir.

Bu qurğunun köməyi ilə sənədlərin surətini ən qısa müddətdə və yüksək keyfiyyətlə çəkmək olar. Qurğunun həcminin və çəkisinin kiçik olması onun portel və ya əl çantasında daşınmasına imkan yaradır.

Qurğunun açılıb və yığılma sadəliyi, obyektivin yüksək optik xüsusiyyətləri, aydınlığa yönəltmə tezliyi, obyektivin avtomatik tənzimlənməsi, işıq mənbələrinin dəyişmə imkanı və çaxmağın sadə işə salınma taktikası və cihazın həm şəbəkədən (220 V) həm də avtomobil akkumlyatorundan (12 V) qidalanması cihazın yüksək keyfiyyətlilik dərəəsini göstərir və çəkilişin keyfiyyətli alınmasına imkan yaradır.

Qurğunun taktiki-texniki xarakteristikası:

1. foto plyonkanın eni - 35 mm
2. kadr ölçüsü - 18 x 24 mm
3. obyektiv - "İndustar-30" tipli
4. lentin uzunluğu - 8 m
5. çəkilən kadrların sayı - 400 ədəd

6. lampaların gücü - 150 Vt (220 V) və 30 Vt (12 V).

Hazırda daxili işlər orqanlarının təcrübəsində sənədlərin surətinin gizli üsulla alınması üçün “Rubin” tipli qurğudan da istifadə olunur.

Qurğunun taktiki-texniki xarakteristikası:

1. surəti çıxarma sahəsinin eni -200 mm.
2. lentin uzunluğu - 5 m
3. çəkilən kadrların sayı - 175 ədəd (standart vərəqə)
4. lentin eni - 16 mm
5. işıq mənbəyi - 4 ədəd OPZ-0,25 tipli lampa
6. qidalanması -7,5 V (5 ədəd element hər biri 1,5 V)

Qurğu 220 V dəyişən cərəyan mənbəyindən düzləndirici vasitəsilə də (7,5 V) işlədə bilər. Qurğunun üzərindəki ox işarəsinin istiqamətində sənəd üzərində saniyədə 90 mm sürətlə gəzdirməklə işlətmək lazımdır.

Çəkilən sənəd hamar mizin üzərində tərpənməz dayanmalıdır.

Kiçik ölçülü “Kopir”qurğusunda 49 x 65 mm ölçüdə olan ağ-qara və ya rəngli olan tutqun və cilalı şəkillərin, əl və ya barmaq izlərinin şəkillərinin hamar səth üzərindən çəkilməsi üçün istifadə olunur.

Refleks üsulu ilə sənədlərin gizli yolla surətini çıxartmaq üçün, təcrübədə elektrolyuminesensiya paneli olan “FKP-2” tipli xüsusi cihazdan müvəffəqiyyətlə istifadə olunur. Onun köməyi ilə aşağıdakı işləri görmək mümkündür:

- makinada və ya mətbəə vasitəsilə çap olunmuş müxtəlif rəngli qələm və ya mürəkkəb vasitəsi ilə yazılmış müxtəlif növlü kağızlarda yazılmış mətnlərin surətini;
- daktiloskopiya vərəqinin surətini;
- ştamp və möhürlərin kağız üzərindəki surətdərini çıxartmaq və s.

“FKP-2” cihazı aşağıdakı əsas hissələrdən ibarətdir:

- gövdədən, elektrolyuminesensiya panelindən, gərginlik sabitləşdiricisindən, cərəyan çevricisindən, çəkilmiş kadrların sayğacından, reduktordan, iki ədəd kasetdən və dörd ədəd elementdən.

Cihaz eni 300 mm və uzunluğu 1600 mm olan həssas fotokağızla işləyir. Cihaz vasitəsilə 6 ədəd kadr çəkilişi aparmaq mümkündür. Cihaz 8 V sabit gərginliklə qidalanır. Kino lentlərinin emalı mürəkkəb texnoloci proses olduğundan, demək olar ki, hazırda çox nadir hallarda istifadə olunur.

Son illər müxtəlif obyektlərin əlvan və ağ-qara rəngli, dinamik və həm də statik təsvirini almaq üçün videoyazı texnikasından istifadə olunmasına böyük üstünlük verilir. Bir qayda olaraq videoçəkiliş aparmaq üçün xaricdə istehsal olunmuş, gəzdirilən profesional videokameralardan istifadə olunur.

Videoyazı aparatlarına televiziya kameralarını, videokameraları, manitorları, qida blokunu, birləşdirici naqilləri, adapteri aid etmək olar.

Fototexnikada olduğu kimi, videokameralarda da daimi və dəyişən fokus məsafəsinə malik olan obyektivlərdən istifadə olunur. Manitor kimi, adapter vasitəsi ilə videmaqnitofonun qoşulduğu, istənilən televiziya qəbuledicisini istifadə etmək olar.

Video çəkiliş uzun müddət aparılarsa (24 saat müddətində), bu zaman qeydə alınan obyektin işıqlanması bir qayda olaraq müəyyən qədər dəyişir. Bu zaman telekameranın obyektivinə düşən işığın sabit saxlanması üçün avtomatik diafraqmalı obyektivdən istifadə olunur. Belə obyektivlər isə aşağıdakı hallarda tətbiq oluna bilər:

– telekamera dəyişən işıq şəraitində işləyəndə;

– diafraqma tam bağlanma vəziyyətinə çatdıqda;

– şəffaf obyektlərin sərhəddinin tam dəqiq verilməsi lazım olarsa.

Telekameraların daha bir xüsusiyyəti, onlarda qamma-korreksiyasının (düzəlişin) olmasıdır ki, bu təsvirin kontrastlılığının dəqiq ötürülməsinə təsir edir. Bu düzəliş manitorda və kamerada təsvirin bir-birinə uyğun gəlməməsi zamanı lazım olur.

Elə hallar olur ki, çəkiliş zamanı telekameraya şəffaf işıq mənbəyi yönəlmiş olur və nəticədə təsviri ayırd etmək mümkün olmur. Bunun isə səbəbi, telekameralarda bütün avtomatikanın, təsvirin orta işıqlanmasına

yönəlməsi ilə izah olunur. Belə halda telekamera orta işıqlanmaya yox, təsvirin mərkəzi hissəsinin işıqlanmasına tənzimlənməlidir.

Daxili işlər orqanlarının fəaliyyətində istifadə olunan audio yazı vasitələrini taktiki-texniki xüsusiyyətlərinə görə aşağıdakı qruplara bölmək olar: Stasionar, gəzdirilən, kiçik ölçülü.

Məsələn "Topaz D-202" diktofonunun vəzifəsi, otaqda və ya açıq havada danışıq siqnallarının yazılması və səsləndirilməsindən ibarətdir. Nitqin yazılması ancaq bir kanaldan, yəni mikrofondan və yaxud da telefon xəttindən həyat keçirilə bilər.

Diktofonun taktiki-texniki xüsusiyyətləri belədir:
– yazma və səsləndirmə sürəti – 2,38 sm/san;
– yazma və səsləndirmə müddəti – 2 x 60 dəq;
– yazma tezlik diapozonu – 250-5000 hs;

Videoinformasiyanı qeyd etmək üçün hazırda bir qədər geniş yayılmış VHS, Sony-8 mm, VHS-C, S-VHS və Hi-8 videoyazı standartlarından istifadə olunur. Bu formatlar bir-birindən istifadə olunan videolentlərin eni və yazılan siqnalın tezlik xüsusiyyətləri ilə fərqlənirlər.

VHS (Video Home System-ev video sistemi) formatı, bu gün dünyada ən geniş yayılmış videoyazı formatıdır. İstifadə olunan maqnit lentinin eni 1/2 düymədir (12,7 mm).

Burada videobaşlıqlar maqnit lentinə nisbətən müəyyən bucaq altında yerləşirlər. Fırlanan videobaşlıqdan fərqli olaraq, səsləndirmə başlığı lentdartıcı mexanizmdə hərəkətsiz bərkidilir. Səsin yazılması adi maqnitofonda olduğu kimi həyata keçirilir. Yazılan səsin tezlik diapozonu 80-8000 hs-ə qədər olur (E-180 kasetləri üçün).

8 mm-lik format "Sony" firması tərəfindən işlənib hazırlanmışdır. Burada istifadə olunan videokasetlər kiçik ölçülüdür və lentin eni 8 mm-dir. Videokasetlərin yazma və səsləndirmə müddəti 15, 30, 60, 90 və 120 dəqiqə olur.

Hi-8 formatı isə nisbətən geniş tezlik zolağına malikdir.

VHS-C yazı formatı, VHS formatından istifadə olunan videokasetin ölçüsü ilə fərqlənir. VHS-C kaseti çox kiçikdir. Bu kasetdə yazılmış videoyazı VHS maqnitofonunda xüsusi adapter vasitəsilə oxuna bilər.

S-VHS (Super-VHS) formatı, VHS formatına nisbətən yüksək keyfiyyətə malik olub, onda olan əsas çatışmamazlıqlardan uzaqdadır. Videolenta, yazma və səsləndirmə recimlərində maqnit başlığının lentə sürtünməsinə qarşı davamsızdır. Ona görə də 500 saat istifadə olunduqdan sonra yaxşı olar ki, videokaset yenisi ilə əvəz olunsun.

Hazırda yaxşı istismar keyfiyyətinə malik olan kamkorderlərdən (telekamera və videoyazı qurğusu bir gövdədə quraşdırılır) istifadə olunur.

Çəkisinin azlığına və yığcamlılığına görə kamkorderlər videoyazı-nın təşkilində geniş istifadə olunur. Sistemin fərqli xüsusiyyətlərindən biri, çəkilişin parametrlərinin avtomatik tənzimlənməsidir. Onun çəkilişin tarixini və vaxtını yazmaq, çəkilmiş materiala təcili baxmaq və s. kimi xüsusiyyətləri, bu texnikanın daxili işlər orqanlarının işində istifadə olunmasının taktiki imkanlarını genişləndirir.

Qeyd olunan videomaqnitofonlardan başqa, hazırda məlumatı bərk və yaxud optik diskə yazmaq üçün rəqəmli videoyazı qurğularından da istifadə olunur. Bu cür videoyazı kadrlarını çıxarmaq üçün isə videoprinterlərdən istifadə olunur. Rəqəmli texnikanın etibarlılıq səviyyəsi, analoci videomaqnitofonlara nisbətən xeyli yüksəkdir, onun funksional imkanları çoxdur; yazı qurtardıqdan sonra, lenti avtomatik olaraq ilkin yazı vəziyyətinə dolaması; elektrik dövrəsini qoşduqdan sonra, onun avtomatik yazı recimınə qoşulması; daxil olmanın bloklanması; videobaşlıqların avtomatik təmizlənməsi və s.).

Rəqəmli qeyd etmə qurğularının tutumu yazılmış kadrların sayı ilə ölçülür. Standart qurğunun tutumu 3000 videokadrdır. Əlavə yaddaş qurğusunun (xarici disketin) qoşulması isə rəqəmli qeydetmə qurğusunda videotəsvirlərin qeyd olunmasının tutumunu xeyli artırır.

Qeyd etmək lazımdır ki, yuxarıda sadalanan texniki vasitələrin əksəriyyətinin taktiki imkanları və istifadə olunma qaydaları ilə təcrübə dərslərində əyani olaraq tanış olacağıq.

# NƏTİCƏ

Beləliklə, mövzuya yekun vuraraq, qeyd etmək lazımdır ki, müasir tipli foto şəkilçəkmə, səs və videyazma vasitələrinin təkmilləşməsi və təcrübədə səmərəli tətbiq olunması və onun əməkdaşlarına cinayətkarlığın qarşısının alınmasında cinayətin üstünün tez bir zamanda açılmasında insan və vətəndaşların hüquq və azadlıqlarının qorunmasında daha geniş imkanlar yaradır.

Bu növ texniki vasitələrin istər gizli, istərsə də açıq şəkildə tətbiqi, nəinki cinayətkar və törədilən cinayət haqqında əməliyyat məlumatlarının yığımını, onların qeydə alınmasını təmin edir, eyni zamanda qanun çərçivəsində onlara qarşı adekvat tədbirlər görülməsini həyata keçirir.